# Ekoloji terrora "yox" deyirik

İnsan qarşısına qoyduğu məqsədə nail olmaq üçün bütün çətinliklərə dözməlidir. Necə ki 2020-ci ilin noyabrında xalqımızın qəhrəman oğulları, igidlərimiz, keçilməz dağ zirvələrindən aşaraq Şuşaya Zəfər yolu saldılar. Canlarını qurban verib düşmən işğalı altında olan torpaqlarımızı azad etdilər.

Torpaqlarımız işğaldan azad edildikdən sonra dünya ictimaiyyəti ermənilərin ərazilərimizdə törətdikləri vandalizmin şahidi oldular. Bu illərdə düşmən təkcə tarixi abidələrimizi, mədəni irsimizi, yaşayış binalarımızı məhv etməmişdi. Eyni zamanda təbiətimizə, onun flora və faunasına ciddi ziyan vurmuşdur. Dünyanın nadir incilərindən sayılan Zəngilan rayonunda yerləşən "çinar vadisi tamamilə qırılıb məhv edilmiş, təbii sərvətlərimiz talanıb Ermənistana daşınmış, hətta  bulaqlar da dağıdılıb məhv edilmişdir. Təəssüf ki, 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən ermənilər dərs almamışdılar. Onlar iyrənc niyyətlərini bu gün də davam etdirməyə çalışırlar. Ermənilərin "Dəmirli" və "Qızılbulaq" yataqlarında qanunsuz qazıntı aparmaları, soyğunçuluq əməlləri barədə əlimizdə xeyli tutarlı fakt var. Mütəxəssislərimiz, vətəndaş cəmiyyəti nümayəndələrimizin monitorinq aparmaları üçün düşmən tərəfindən ekoloji terrora məruz qalan ərazilərə buraxılmaması haqlı olaraq gənclərimizin etirazına səbəb olub. Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı təşkil olunan dinc aksiya qeyri-sabit hava şəraitinə baxmayaraq, artıq 16 gündür ki, davam edir. Bir gənc kimi bu aksiyaya qoşulmağı özümə borc bildim.

Laçın-Xankəndi yolunun Rusiya sülhməramlılarının nəzarətində olan hissəsində azərbaycanlı fəalların və vətəndaş cəmiyyəti üzvlərinin Qarabağ iqtisadi rayonunda ekoloji cinayətə son qoyulması tələbi ilə keçirdikləri dinc aksiyaya biz könüllülər də qoşularaq Qarabağda ekoloji terrora, qızıl yataqlarının qanunsuz istismarına son qoyulmasını tələb edirik. Biz regionda separatçılığa "yox" deyirik. Biz müharibəyə "yox" deyirik. Qanuni tələblərimiz yerinə yetirilənədək dinc aksiyaya davam etmək niyyətində olduğumuzu qətiyyətlə bildiririk. Hər kəs bilməlidir ki, ölkəmizin yerüstü və yeraltı sərvətləri yalnız və yalnız Azərbaycana məxsusdur. Biz haqlı olaraq bu tələblərin yerinə yetirilməsini istəyirik. Azərbaycan könüllüləri olaraq ekoloji terrora "yox" deyirik.

***Aydan HÜSEYNLİ,***
***Azərbaycan Könüllü Təşkilatları İttifaqının üzvü***

Azərbaycan. - 2022.- 31 dekabr.- S.8.